# KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SİYASƏTİ

Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyada (bundan sonra - MO) korrupsiya və onun bütün təzahür formaları, o cümlədən rüşvətxorluq hallarının qarşısının alınması istiqamətində qurumun bütün əməkdaşları iltizamlandırılmışdır. Qurumun bütün işçiləri korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyin tələblərinə, habelə korrupsiya və rüşvətxorluğun bütün formalarını qadağan edən digər bütün normativ tələblərə əməl etməlidir:

**Rüşvət verməyə (aktiv rüşvətxorluq) qadağa –** xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsinin qadağan edilməsi;

**Rüşvət almağa (passiv rüşvətxorluq) qadağa -** Rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsinə qadağa;

**Rüşvətxorluqda vasitəçiliyin qadağan edilməsi -** rüşvətin, rüşvət verənin və ya rüşvət alanın adından digərinə birbaşa və ya dolayı ötürülməsinin qadağan edilməsi;

**Kommersiya rüşvətxorluğunun qadağan edilməsi –** təşkilatın vəzifəli şəxsi olmayan işçisi (təşkilati və ya inzibati vəzifələrin yerinə yetirilməsi ilə bağlı təşkilatda daimi və ya müvəqqəti və ya xüsusi səlahiyyətlə vəzifə tutan və ya müəyyən edilmiş qaydada hüquqi əhəmiyyətli hərəkətlər etmək səlahiyyəti verilmiş şəxs) tərəfindən öz işi ilə bağlı, təşkilatın və ya qarşı tərəfin maraqlarına zərər vura bilən, bilərəkdən edilən hər hansı fəaliyyətə (və ya fəaliyyətsizliyə) görə, rüşvət verənin maraqları naminə pul, qiymətli kağızlar, digər əmlak və ya mülkiyyət xarakterli xidmətlərin alınmasının qadağan edilməsi;

**Qeyri-qanuni hədiyyələrin qəbulunun qadağan edilməsi -** təşkilatın işçisinin xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təəssürat yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya belə mükafat təəssüratı yaradan hədiyyələrin özü və ya digər şəxslər üçün tələb edilməsinin və ya qəbul edilməsinin qadağan edilməsi;

MO-ın bütün işçilərinə birbaşa və ya dolayı yolla, şəxsən və ya üçüncü şəxslər vasitəsilə hər hansı korrupsiya əməlləri törətmək, rüşvət təklif etmək, vermək, vəd etmək, istəmək və almaq qadağandır.

MO və onun əməkdaşları dünyanın istənilən ölkəsində beynəlxalq hüququn ümumqəbul olunmuş prinsip və normalarına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyə, habelə bu Siyasətin tələblərinə əməl etməlidirlər.

**Qurumun rəhbəri** ______________________

Sened N: MO-HDNŞ-RQMS. Re 00. Tarix 01.04.24